# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi haqqında Əsasnamənin təsdiq edilməsi barədə

# Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi haqqında Əsasnamə və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin embleminin təsviri təsdiq edilsin (əlavə olunur).

***Azərbaycan Respublikasının Prezidenti***

***Heydər ƏLİYEV.***

***Bakı şəhəri, 14 may 1999-cu il.***

***№ 131.***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (21 may 1999-cu il, № 115).***

***«Azərbaycan Respublikası Qanunvericilik Toplusunda» dərc edilmişdir (31 may 1999-cu il, № 5, maddə 301).***

*Azərbaycan Respublikası Prezidentinin*
*1999-cu il 14 may tarixli*
*131 nömrəli Fərmanı ilə*
***təsdiq edilmişdir.***

# Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi haqqında Əsasnamə

1. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi hərbi qulluqçuların, həmçinin silahların, hərbi texnikanın və digər texnikanın Silahlı Qüvvələrə mənsubiyyətini bildirən nişandır.

2. Azərbaycan Respublikasının Silahlı Qüvvələrinin emblemi Azərbaycan Respublikası müdafiə naziri və onun müavinlərinin əmr və direktiv blanklarında, künc ştamplarında və ya hərbi idarə orqanlarının, birləşmələrin, birliklərin, hərbi hissələrin, müəssisələrin, idarələrin, təşkilatların, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin hərbi-tədris müəssisələrinin künc ştamplı blanklarında yerləşdirilir.

3. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi silahların və hərbi texnikanın üzərində dövlət mənsubiyyətinin tanınma nişanı kimi təsvir edilir.

4. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi Azərbaycan Respublikası müdafiə nazirinin kabinetində və Müdafiə Nazirliyinin kollegiya zalında yerləşdirilir.

5. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi hərbi hissələrin Döyüş Bayrağında «Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi hissəsinin Döyüş Bayrağı haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada, fərqlənmə və hərbi qulluqçuların fərqləndirmə nişanlarında, hərbi geyim formasının predmetlərində «Azərbaycan Respublikası Silahlı Qüvvələri hərbi qulluqçularının hərbi geyim formasını daşıma qaydaları»na uyğun olaraq yerləşdirilir.

6. Azərbaycan Respublikası Silahlı Qüvvələrinin embleminin təsvirinin verilməsinə aşağıdakı hallarda icazə verilir:

- Azərbaycan Respublikası Müdafiə Nazirliyinin çap məhsullarında, həmçinin Müdafiə Nazirliyinin buraxdığı kino, video və fotomateriallarında;
- Azərbaycan Respublikası Müdafiə Nazirliyinin sifarişi ilə hazırlanan reklam-informasiya və suvenir məhsullarında (prospektlər, bukletlər, təqvimlər, nişanlar, vımpellər, kiçik bayraqlar, saatlar, applikasiyalar, qablar, medalyonlar, dəftərxana ləvazimatı və digər məhsullar).

# Azərbaycan Respublikası
# Silahlı Qüvvələrinin embleminin təsviri

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi tiyələri yuxarı baxan çarpazlaşdırılmış qılıncların iti ucları arasında yerləşən səkkizguşəli ulduz və ayparadan ibarətdir. Qılıncların aşağı əsaslarından tiyələr boyunca hər iki tərəfə, onların ucuna iki dəfnə budağı yönəlib. Səkkizguşəli ulduz, aypara, qılınclar və dəfnə budaqları qızılı (ağ) rəngdədir.

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin emblemi həmçinin ağ-qara təsvirdə hazırlana bilər.



**Azərbaycan Respublikası**
**Silahlı Qüvvələrinin emblemi**